# QANUN

№ 08 (112) İctimai-siyasi, elmi hüquq jurnalı 2003


AZƏRBAYCANIN XARİCİ
TİCARƏT KONSEPSİYASI VƏ STRATEGİYASI

OMBUDSMANIN YARANMA
TARİXİ, MAHİYYƏTİ VƏ CƏMİYYƏTDƏ ROLU

ƏMƏK HÜQUQ
NORMALARININ STRUKTURU

MONTESKYÖNÜN
HƏYATI VƏ HÜQUQİ GÖRÜŞLƏRİ

БОЛЬШЕВИКИ НЕ ПОСТРОИЛИ И
ОБЪЕКТИВНО НЕ МОГЛИ ПОСТРОИТЬ СОЦИАЛИЗМ.
ОНИ ПОСТРОИЛИ КОММУНАЛИЗМ

КТО ПОДОГРЕВАЕТ
КЛЕВЕТУ ВОЕННОГО "ЮРИСТА"?


# YENİ SƏNƏDLƏR

tunun səbəbinə dair düşüncələr" adlı məşhur əsərini nəşr etdirmişdir. O, bu əsərində Romanın tarixi nümunəsində sübut etməyə çalışırdı ki, harada vətəndaşlar azaddırlarsa, ədalətli qayda-qanunlar hökm sürürsə, orada normal cəmiyyət olar.

Monteskyö Avropa ölkələrinə bir çox səyahətlər etmiş, müxtəlif ölkələrin dövlət hakimiyyəti, quruluşunun fərqli formalarını (respublika, monarxiya, despotizm) müqayisə edərək təhlillər aparmışdır. Monteskyö tarixdə ilk dəfə olaraq siyasi proseslərin inkişaf qanunauyğunluqları ilə bağlı ümumiləşdirilmiş nəticələr almaq üçün müxtəlif ölkə hüquqlarının müqayisəli öyrənilməsindən şüurlu və sistemli şəkildə istifadə etmişdir.

Monteskyönün 1748-ci ildə Cenevrədə məşhur iki cildlik şah əsəri – "Qanunların ruhu" çap edilmişdir. O, bu əsərdə Lokkun ənənələrini davam etdirərək liberal demokratik quruluşun prinsiplərini müəyyənləşdirmişdir. Monteskyö Avropada mütləq monarxiyaları müşahidə edib təhlillər apararaq kral hakimiyyətinin vətəndaşlara qarşı özbaşınalığını aradan qaldırmaq üçün əlverişli yollar axtarırdı. Bu məqsədlə o, "Qanunların ruhu" əsərində hüquqi dövlət və hakimiyyətin bölünməsi konsepsiyasını irəli sürmüşdür. Monteskyö hesab edirdi ki, vətəndaş cəmiyyətində siyasi azadlıq hüquqi dövlətin qurulmasında əsas rol oynayır. Onun siyasi azadlıq ideyası vətəndaş azadlığı ideyası ilə əlaqədar idi ki, bunun da əsasını ölkə vətəndaşlarının təhlükəsizliyi təşkil edirdi. O yazırdı: "Azadlıq odur ki, qanunlarla icazə verilən hər şeyi edə biləsən. Əgər vətəndaş bu qanunlarla qadağan olunmuş şeyi edə bilərsə, onda onun azadlığı olmazdı, belə ki, həmin şeyi digər vətəndaşlar da edə bilər". Monteskyö siyasi azadlıq deyərkən qanunçuluğun və təhlükəsizliyin bərqərar olmasını nəzərdə tuturdu. Buna nail olmaq üçün isə o, hakimiyyətin bölgü prinsipi konsepsiyasını işləyib hazırlamışdır. Bu konsepsiyaya görə dövlət hakimiyyəti müxtəlif orqanlarda cəmləşmiş və bir-birini qarşılıqlı surətdə məhdudlaşdıran və tarazlaşdıran qanunvericilik, icra və məhkəmə hakimiyyətinə bölünür. Monteskyönün bu konsepsiyası dövlət hüququ nəzəriyyəsində böyük əks-səda doğurdu. Öncə böyük Britaniyada konstitusion inkişafa təsir edən, habelə ABŞ Konstitusiyasında öz əksini tapan bu konsepsiya, sonralar müasir dünyanın bütün demokratik dövlətlərinin Konstitusiyasında təsbit edilmişdir.

Monteskyö "Qanunların ruhu" əsərində cinayət, cəza və cinayət prosesi məsələlərinə də toxunmuş, bu barədə dəyərli fikirlər irəli sürmüşdür. Monteskyönün bu əsərində onun cinayət hüquqi proqramını əks etdirən fəsillər (cəzanın gücü haqqında, cinayət və cəza barəsində dəqiq mütənasiblik haqqında, pul və cismani cəzalar haqqında, talion qanunun haqqında) vardır. O, cinayət hesab edilən əməllər dairəsinin (xüsusilə də din sahəsinə və monarxın təhqir edilməsi ilə bağlı olan cinayət əməlləri dairəsinin) xeyli məhdudlaşdırılmasının qızğın tərəfdarı olmuşdur. Monteskyöyə görə hərəkətlərlə müşayiət edilməyən sözlərə və fikirlərə görə şəxsi cinayət məsuliyyətinə cəlb etmək olmaz. Onun fikrincə, hər bir cinayət qanunda dəqiq müəyyən olunmalıdır ki, hakim qanundan kənara çıxa bilməsin.

Monteskyö cinayət cəzasının şəxsin törətdiyi cinayətə uyğunluğu prinsipini də işləyib hazırlamışdır. Eyni zamanda o, cəzaların ümumən yüngülləşdirilməsinin tərəfdarı olmuş və ölüm cəzasının tətbiq dairəsinin məhdudlaşdırılması zərurətini xüsusilə qeyd etmişdir.

Monteskyo cinayətkarlığın səbəbləri probleminə dair özünün metodoloji konsepsiyasını da hazırlamışdır. Bu konsepsiyada o, cinayətlərin baş verməsəbəblərini iqlimin təsirindən asılı olduğunu sübut etməyə çalışırdı. Onun fikrincə, şimaldan cənuba hərəkət etdikcə ehtiraslar və cinayətlər də artır. Monteskyö cinayət hüququnun əsas vəzifəsini cəzalandırmaqdan daha çox, cinayətkarlığın qarşısını almağın zəruriliyində görürdü.

"Qanunların ruhu" sivil dünya ölkələrində dövlət hakimiyyətinin demokratik sisteminin inkişafına böyük təsir etmişdir. Bu əsərin Monteskyönü daha da məşhurlaşdırmasına baxmayaraq, əsər katolik kilsəsi tərəfindən narazılıqla qarşılandı. 1749-cu ildə "Qanunun ruhu" kilsə tərəfindən, bəzi dini ehkamları rədd edən əsər kimi ittiham edilərək hücumlara məruz qaldı. Bu ittihamlara qarşı 1750-ci ildə Monteskyö "Qanunların ruhunu müdafiə" əsərini yazdı. Buna baxmayaraq, 1751-ci ildə "Qanunların ruhu" əsəri kilsə tərəfindən qadağan edildi.

Filosof ömrünün son illərini atalarının malikanəsi olan le Berde qalasında yaşayırdı, lakin o, ilin bir neçə ayını Parisdə keçirməyə vərdiş etmişdi. Yenə belə bir səfərdə ikən Monteskyö, 10 fevral 1755-ci ildə, 66 yaşında olarkən dünyasını dəyişdi. Bu böyük insan dünya işığına gözlərini yumarkən tarixdə iz buraxan digər məşhur şəxsiyyətlərdən Bekkariya 17, Holbax 18, Russo 42, Didro 42, Volter isə 61 yaşında idi.



# Cinayət hüququnda tərbiyəvi xarakterli məcburi tədbirlərin anlayışı və növləri

**Tərbiyəvi xarakterli məcburi tədbirlər yetkinlik yaşına çatmayanlara cinayət işinə xitam verilməsindən sonra tətbiq olunur və yetkinlik yaşına çatmayanların məhkum edilmiş sayılmasına səbəb olur. Bununla yanaşı, bu tədbirlər yetkinlik yaşına çatmayanları islah etməyə və onlar, habelə digər şəxslər tərəfindən yeni cinayətlərin törədilməsinin qarşısını almağa yönəlir.**

**Şəlalə QASIMOVA**
**BDU-nun "Cinayət hüququ" kafedrasının dissertantı**

Cəmiyyət və dövlət yeniyetmə nəslin tərbiyəsi işinə qayğı göstərməlidir. Bu işin mühüm tərkib hissəsi yetkinlik yaşına çatmayanlar tərəfindən törədilən hüquqpozmalarla mübarizə sayılır. Belə kateqoriya şəxslərə münasibətdə çevik hüquqi siyasətin işlənib hazırlanması və həyata keçirilməsi qanunvericilik və hüquqtətbiqetmə təcrübəsinin başlıca vəzifələrindən biri sayılır.

· Yetkinlik yaşına çatmayan şəxslərin cinayət məsuliyyətindən azad edilməsi respublikamızın artıq qüvvədən düşmüş 1960-cı il tarixli Cinayət Məcəlləsinin 10-cu maddəsinin 3-cü hissəsində nəzərdə tutulurdu. Bu maddəyə əsasən, on səkkiz yaşınadək olan şəxs böyük ictimai təhlükəli cinayət hesab edilməyən əməli etdikdə, məhkəmə həmin şəxsin cinayət cəzası tətbiq edilmədən islah olunacağını mümkün saydıqda, belə şəxs haqqında qanunla nəzərdə tutulmuş c nayət cəzası, tərbiyəvi xarakterli məcburi tədbirlər tətbiq edə bilərdi. Bundan başqa, köhnə CM-in 49-cu maddəsində işi yetkinlik yaşına çatmayanların işləri üzrə komissiyaya göndərməklə cinayət məsuliyyətindən azad etmə institutu da tətbiq olunmuşdu: "Yetkinlik yaşına çatmayan şəxs böyük ictimai təhlükəsi olmayan cinayət əlamətləri olan əməl törətmişsə, cinayət cəzası tətbiq edilmədən onun islah olunması mümkündürsə, onun haqqındakı iş rayon, şəhər, şəhərlərdə rayon icra hakimiyyəti başçısının aparatı yanında yetkinlik yaşına çatmayanların işləri üzrə komissiyaya göndərilməklə, o, cinayət məsuliyyətindən azad edilə bilər. Lakin bu zaman tərbiyəvi xarakterli məcburi tədbirləri CM-in 10-cu maddəsinin 3-cü hissəsindən fərqli olaraq, yetkinlik yaşına çatmayanların işləri üzrə komissiyalar tətbiq edirdi.

Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumu bir sıra rəhbər qərarlarında yetkinlik yaşına çatmayanların cinayət işlərinə baxarkən, hər bir halda onlara cinayət cəzası tətbiq etmədən tərbiyəvi xarakterli məcburi tədbirlərin köməyi ilə islah olunacaqlarının mümkünlüyünü xüsusi olaraq müzakirə etməyi məhkəmələrə tövsiyə etmişdir.

Yeniyetmələrin cinayətkar və ümumiyyətlə, cəmiyyətə zidd davranışının səbəblərinə və xarakterinə dair çoxsaylı tədqiqatlara görə, həmin şəxslərə münasibətdə Respublikamızın cinayət qanunvericiliyi ilə nəzərdə tutulmuş bütün tədbirlər, hər şeydən əvvəl, bu kateqoriya cinayətkarların yaş xüsusiyyətləri ilə şərtlənir. Həmin xüsusiyyətlər yüksək dərəcədə emosiyaya qapılmada, xarakterin dəyişkən olmasında, öz şəxsiyyətini təsdiq etmək istəyində və s. üzə çıxır. Göstərilən psixoloji yaş xüsusiyyətləri həm cinayətlərin törədilməsi motivlərində, həm də onların xarakterində ifadə olunur. Bundan başqa, statistika və